NOVRUZ BƏKİROV
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,
Bakı ş., İstiqlaliyyət küç., 26
e-mail: bekirov.novruz@mail.ru

MOLLA CÜMƏ ƏSƏRLƏRİNİN GÜRCÜ ƏLİFBASI İLƏ KÖÇÜRÜLMÜŞ ƏLYAZMA NÜSXƏSİNİN ORİJİNAL VARİANTININ ORTAYA ÇIXARILMASI BARƏDƏ

Xülasə

Məqalədə Qafqaz bölgəsində əsrlər boyu birgə mehriban qonşuluq və dostluq şəraitində yaşamış Azərbaycan və gürrcü xalqlarının münasibətlərindən söhbət açılır.

Hər iki xalq müxtəlif tarixi dönəmlərdə hərbi, iqtisadi, siyasi və mədəni sahədə öz dövlətçiliyinin qorunub saxlanması üçün yadellilərə qarşı müxtəlif üsullarla birgə mübarizə aparmışdır. Butün bunlar hər iki xalqın ədəbi və mədəni sahədə birgə fəaliyyətə xüsusi önəm verilməsinə zəmin yaratmışdır. Bu əlaqələr qədim tarixi köklərə malikdir.

Molla Cümə və Konstantin Muradxanaşvilinin sənət dostluğunu da bu sahədə bariz nümunə kimi qeyd etmək olar. Hər iki sənətkar Azərbaycan və gürcü xalqları arasında aşıq poeziyasının inkişafına böyük təsir göstərmiş, xalqlar arasında mehriban qonşuluq və dostluq münasibətlərini inkişaf etdirmişlər.

38 şeirdən ibarət gürcü əlifbası ilə aşıq Konstantin Muradxanaşvili tərəfindən köçürülmüş əlyazma dəftər tərəfimizdən aşkar edilərək tədqiq edilmiş və Məhəmməd Füzuli adına Əlyazmalar İnstituna təhfil verilmiş, FR-1648 nömrəli şifrə ilə qeydiyyata alınmışdır. İnanırıq ki, bu əlyazma gələcəkdə araşdırıcılar üçün maraqlı mənbə olacaqdır.

Açar sözlər: Molla Cümə, aşıq sənəti, Aşıq Konstantin, əlyazma nüsxəsi, müqayisəli təhlil

Azərbaycan ədəbiyyatının təsiri ilə gürcü mədəniyyəti tarixində aşıq yaradıcılığı özünəməxsus yer tutmuşdur. Mzia Çaçavanın sözlərinə görə aşıq sənəti bilavasitə xalqa bağlı idi. Aşıqlar xalq arasından çıxır və onun arzu-hisslərini aydın şəkildə əks etdirirdi.

Gürcüstan qədim dövrlərdən türklərin yaşadığı ərazi olmuşdur. Orta əsrlərdə Osmanlı və Səfəvi dövlətlərinin bu bölgədə nüfuzunun artması ilə türk-müsəlmanların, Azərbaycan türklərinin xüsusi çəkisi artdı. Yerli əhali xeyli dərəcədə müsəlmanlaşdı, məişətdə türk dili yayıldı. Türk dili domirant dil kimi bərqərar oldu. İkidilli mühitdə aşıqlar özlərinə məxsus yeri tapdılar, yerli əhalinin məclislərində ən sevimli qonağa çevrildilər.

Bizə çatan məlumata görə XVII-XIX əsrlərdə hətta Tiflisdə XX əsrin əvvəllərinə qədər müxtəlif məclislərdə, toy-sünnət məclislərində sazandalarla bərabər aşıqlar da iştirak edirdilər. Xalq arasında sazandar əvəzinə aşıq termini daha populyar olmuşdu. Aşıq poeziyası üslubu özünə münbit zəmin yaratdı. Azərbaycan türklərinin aşıq sənətinin gürcü mədəniyyətinə təsirinin bir göstəricisi də XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Molla Cümənin Gürcüstanın şərqində, Cavaxetidə el məclislərində yazdığı əsərlərini ana dilində ifa etməsindən, bölgədə sənətkar olmaması səbəbindən gürcü aşıq şeirinin yaradıcılığına güclü təsir etməsindən ibarətdir. Onun repertuarında əsasən ənənəvi Azərbaycan-türk mətnindən istifadə olunurdu. Oxuduğu havanı ifa edərkən, rəvayət hissəsini yerlilərə aydın formada çatdırır və bəzən buna görə şeirin bəndində qafiyəni pozmuş olurdu. Məlumdur ki, gürcü əlifbası Azərbaycan-türk mətninin fonetikasını tam mənası ilə əks etdirə bilmir. Gürcü əlifbası ilə köçürülmüş Azərbaycan poetik mətnini tam mənası ilə başa düşmək üçün həm də müəyyən dərəcədə kartveloloq (gürcüşünas) olmaq lazım gəlir.

Belə görünür ki, aşıq sənətinin gürcü şifahi ədəbiyyatına təsirinin əlamətləri indi də özünü göstərməkdədir. Xalq arasında "Şairoba" (aşıq-şair) şeir ilə yarışması geniş yayılmışdı. Çox zaman belə yarışmalardakı deyişmələr şəxsiyyətə, kəndə, bölgə əhalisinə sataşma forması alırdı. Məsələn:

- Çanxadan* ötdüm (keçdim)

- Qadın çıl-çırpı yığırdı
- Kildadan* ötdüm (keçdim)
- Eşşəyə kirvə deyerlər
- Ptenadan* ötdüm (keçdim)
- Eşşəyə dil sürtərlər və s. (*-*ulduzla qeyd edilənlər kənd adlarıdı).*

Gürcüstanın cənubi-qərbi və şimali-şərqində yaşayan əhali (Borçalı), türk dilində, öz ləhcəsində, aşıq tərzində şeir və havaları qoruyub saxlamaqdadır. Mövzunu araşdıran alim-folklorşünaslar bunun şərqdən gəldiyini etiraf edirlər.

Əldə edilmiş əlyazma dəftərin araşdırılması zamanı məlum olmuşdur ki, dəftərdən ilk 5 şeir itmişdir. Dəftərdəki mətn isə 5-ci şeirin son bəndi və altıncı şeirdən başlanır. Əldə etdiyimiz əlyazmada cəmi 38 şeirin olduğu müəyyən edilmişdir. Aşıq Konstantinin nəvələri Mişa və Merab tərəfindən həmin şeirlərin hamısının Molla Cüməyə məxsus olduğu göstərilirdi. Lakin, tərəfimizdən aparılan şeirlərin mətninin tədqiqi zamanı məlum oldu ki, onlardan cəmi 13-ü Molla Cümənindir. Digər müəlliflərin əsərlərinin buraya düşməsinin səbəbi odur ki, el şənliklərində və digər tədbirlərdə Molla Cümə başqa Azərbaycan aşıqlarının da repertuarlarına müraciət etmişdir. Dəftərdə Molla Cümənin 13, Aşıq Ələsgərin 1, Aşıq Talıbın 1, Aşıq Əlixanın 2, Aşıq Mirzənin 1, Aşıq Rəcəbin 4, Aşıq Məmmədin 1, Aşıq Alının 1, Aşıq Qızyetərin 1, Aşıq Məhəmmədin 1, Aşıq Məmmədəlinin 1, Aşıq Abdullanın 1, Aşıq Qurbanın 1şeiri, dastanlardan 5 şeir, naməlum-3 şeir vardır. Qeyd edək ki, naməlum şeirlərin də Molla Cüməyə məxsus olduğunu güman edirik.

Siyahıdan göründüyü kimi, Molla Cümə bölgədə olan digər xalqların nümayəndələri arasında, təkcə özünün yox, zəngin repertuara malik digər Azərbaycan aşıqlarının şeirlərini də yaymışdır.

Şeirlərin mətnlərinin tekstoloji təhlili zamanı müəyyən edilmişdir ki, Molla Cüməyə məxsus 13 şeirdən 5-i Paşa Əfəndiyevin nəşr etdirdiyi "Molla Cümə. Əsərləri" kitabında öz əksini tapmışdır**.** Bunlar: **"Deyə-deyə", "Öləndən sonra", "Dilbər", "Yerisin" , "İsmi pünhan"** şeirləridir. Digər, **"Miskin", "Sevgilim", "Pərvərdigar", "Bəxtəvər", "Niyə küsmüsən", "Pərvanə", "Bənzəməz" "Ağlayanda"** başlıqllı 8 şeirinə isə yalnız gürcü əlifbası ilə köçürülmüş əlyazmada rast gəlirik. Bu şeirlər məzmun və mənaca tam fərqlidir. Şeirlər birbaşa şairin dilindən eşidilən kimi köçürüldüyündən hesab edirik ki, orijinala daha yaxındır. Araşdırma zamanı Molla Cümənin digər araşdırıcılarının aşağıdakı işlərinə də müraciət etmiş və orada həmin şeirlərə rast gəlməmişik:

- **Azərbaycan aşıqları.** Toplayan/H. Əlizadə, I-II hissə, Bakı, 1929-1930;
- **Aşıqlar** I-hissə II çap, Bakı, 1937;
- Vaqif Vəliyev, **Azərbaycan şifahi xalq ədəbiyyatı,** Bakı, 1970 mənbələrini göstərmək olar.

Gürcü əlifbası ilə köçürülmüş əlyazma nüsxədəki əsərlərin mətnini nəşrlərdəki şeirlərlə müqayisəli təhlil edərkən onların arasındakı fərqi aydın şəkildə görmək mümkündür. Məsələn, əlimizdəki dəftərin 22 –ci **"Sən ağlayanda"** başlıqlı şeirinə nəzər salaq**.** Aşıq Konstantin Muradxanaşvili Molla Cüməyə məxsus **"Sən ağlayanda"** şeirini köçürərəkən mətndə bir sıra təhriflərə yol vermişdir. Əlyazma nüsxəsinin 1-ci bəndinin mətnini müqayisəli-tekstoloji təhlil edərkən görürük ki, müəllif həqiqətən Molla Cümənin şeirini onun dilindən eşitdiyi kimi yazmağa cəhd etmişdir. Məsələn, **"Sən ağlayanda"** şeirinin birinci bəndi belədir:

Azərbaycan əlifbası ilə oxunanda bu bənd belə səslənir:

Biqapil vuruldum yandim ağladi
Diskin oldi halum sen ağlianda



Ela bil ki, kxalbim iroq dağladin
Itirdim ağlumi sen ağlianda [3.s.13].

Paşa Əfəndiyevin tərtib etdiyi "Molla Cümə. Əsərləri" kitabında isə bu bənd belədir: [4.s.59].

Beyqəfil qovrulub məlul ağladın
Müşkül oldu halım sən ağlayanda,
Elə bil ağladın canım dağladın
İtirdim kamalım sən ağlayanda.

Başqa mənbələrdə **"Sən ağlayanda"** başlıqlı şeirin digər variantlarına rast gəlinməmişdir.

Artıq yazılı mətnləri müqayisəli təhlil etdikdən sonra asanlıqla deyə bilərik ki, şeir sözləri Konstantin Muradxanaşvili tərəfindən qələmə alınarkən bilavasitə ustad aşıq Molla Cümənin dilindən eşidildiyi kimi ilkin variantda gürcü əlifbası ilə yazılmışdır. Həmin bəndin düzgün variantı fikrimizcə belədir:

Biqafil vuruldum, yandım, ağladım,
Düşgün oldu halım sən ağlayanda.
Elə bil ki, ürəyimi dağladın,
İtirdim ağlımı sən ağlayanda [5.s.152-153].

Əlimizdə olan dəftərdə gürcü əlifbasıyla köçürülən **"Sevgilim"** başlıqlı 21-ci şeirin əlyazma nüsxəsinin birinci bəndi belədir:



Azərbaycan əlifbasına çevirdikdə bu bənd belə səslənir:

Seni neca inandirim and içim inan
Sevqilim bilbil airilmaz qilinan
Eçkəs airilmaz yarinan qevlimdaki
Sana deim doğri dim inan sevqilim [3.s.8].

Bu bənd Azərbaycan dilinə tərəfimizdən uyğunlaşdırıldıqda belə səslənir:

Səni necə inandırım, and içim,
İnan, sevgilim, bülbül ayrılmaz güldən
Heç kəs ayrılmaz yarından, gönlümdəkin
Sənə deyim, doğru deyim, inan sevgilim.

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı deyil. Əslində fikrimizcə istedadlı şairin həmin şeir parçası belə səslənməlidir. Bu bizim irəli sürdüyümüz ehtimaldır:

Səni necə inandırım,
And içim, inan, sevgilim.
Qəlbimdəkin sənə deyim,
Doğruydum, inan sevgilim. [5.s.150-151].

Gürcü əlifbasıyla köçürülmüş **"Pərvərdigar"** başlıqlı şeirin əlyazma nüsxəsinin birinci bəndini nəzərdən keçirək:



Bu bənd Azərbaycan əlifbasına çevriləndə belə səslənir:

Kxudratinan xalx endaripsan şimani,
Perverdiqar яaxşi içun yaği kxilut ,
Yamani perverdiqar kimi ainar kimi,
Qilar kimi dişvin aldadi leun leun [3.s.13].

Şeir parçası Azərbaycan dilinə uyğunlaşdırıldıqda belə səslənir:

Qüdrətinlə xalq edərmisən, çəməni,
Pərvərdigar yaxşı üçün yaği qılıb yamani,
Pərvərdigar kimi oynar, kimi gülər, kimi düşgün, al dadı
Leylini döndəribsən zəmanə, Pərvərdigar

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı deyil. Əslində istedadlı şairin həmin şeir parçası belə səslənməlidir:

Qüdrətinlə xəlq etmisən, çəməni,
Yaxşı üçün yağı qılıb, yamanı pərvərdigar,
Kimi oynar, kimi gülər, kimi düşgün haldadır,
Löyün-löyün döndəribsən zəmanı, Pərvərdigar [5.s.164-165].

Gürcü əlifbasıyla köçürülmüş **"Bəxtəvər"** başlıqlı şeirin əlyazma nüsxəsinin birinci bəndini nəzərdən keçirək:



Bu bənd Azərbaycan əlifbasına çevriləndə belə səslənir:

Ceyran teki ovlağı ovliyan salanin
Nazinan qalan baxtavar
kxizil kxuşin bala teki sevlian
kxadir qecasinda olan baxtavar [3.s.21].

Bu bəndi Azərbaycan dilinə uyğunlaşdırdıqda belə səslənir:

Ceyran təki övlağı ovlayan nazənin,
Naz ilə gələn bəxtəvər.
Qızıl quşun bala təki söyləyən,
Qadir gecəsində ötən bəxtəvər.

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı deyil. Əslində istedadlı şairin həmin şeir parçası belə səslənməlidir:

Ceyran təki övlağı ovlayan nazənin,
Naz ilə gələn bəxtəvər.
Qızıl quşun bala təki söyləyən,
Qadir gecəsində ötən bəxtəvər. [5.s.192-193].

Şairin gürcü əlifbası ilə köçürülmüş **"Niyə küsmüsən"** başlıqlı şeirinin bir bəndini nəzərdən keçirək:



Bu bənd Azərbaycan əlifbasına çevriləndə belə səslənir:

Aqulizarim niçin menan kusmisen
Nalat ehla o şeytana yaxin qel
Şad qevlima derd şanani hixmişsen
Xulax verma har Yatana haxin qel[3.s.21].

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı

deyil. Əslində istedadlı şairin həmin şeir parçası belə səslənməlidir:

Ay, Gülzarım, məndən niyə küsmüsən
Lənət eylə o şeytana, yaxın gəl.
Şad könlümə dərd şanəni yığmısan,
Qulaq vermə hər yalana, yaxın gəl! [5.s.194-195].

Şairin gürcü əlifbası ilə köçürülmüş **"Pərvanə"** başlıqlı şeirinin bir bəndi belədir:



Bu bənd Azərbaycan əlifbasına çevriləndə belə səslənir:

Akiz durmişsen menim kxarşimda erit
Çirğin yağı sen menin pevana tek
Yandim Yandim alişdim çekipsan sinama
Dağı sen menin kaşinan qezinan baxub[3.s.22].

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı deyil. Əslində istedadlı şairin həmin şeir parçası belə səslənməlidir:

Ay qız, nə durubsan mənim qarşımda?
Əritdin çırağın yağı, sən mənim.
Pərvanə tək yandım, yandım, alışdım,
Çəkibsən sinəmə, dağı sən mənim [5.s.198-199].

Şairin **"Bənzəməz"** başlıqlı şeirinin gürcü əlifbası ilə köçürülmüş bir bəndini nəzərdən keçirək:



Bu bəndi Azərbaycan əlifbasına çeviəndə belə səslənir:

Ei adamlar bu qezalin yanağı barmağin
Dizi topuği yanağı marala oxşir
Qezi avağı eç indiki birin sana

Benzamaz izmin qezalda qezaldir[3.7.s.21].

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı deyil. Əslində istedadlı şairin həmin şeir parçası belə səslənməlidir:

Ey insanlar, bu gözəlin yanağı,
Dizi, qolu, əl-ayağı, barmağı,
Topuğu, gözləri marala oxşar,
Heç indiki insanlara bənzəməz[5.s.200-201].

Şairin **"Miskin"** başlıqlı şeirinin gürcü əlifbası ilə köçürülmüş bir bəndini nəzərdən keçirək:

Bu bəndi Azərbaycan əlifbasına çevirəndə belə səslənir:

Derviş avsunçi deqilaen man
Odu bilirsanki qucun yoxdir qolinda
İşun nadu bir yerda yoxsul olanda
Yoxsilunan dur otu miskin olanda [3.8.s.4].

Bu fikirdəyik ki, ustad sənətkarın bədahatən söylədiyi bu misralar əsərin son kamil variantı deyil. Əslində istedadlı şairin həmin şeir parçası belə səslənməlidir:

Dərviş ovsunçu deyiləm mən də
Bilirsən ki, yox güc artıq qolumda,



İşim nədir, orda yoxsul görəndə?

Yoxsulla dur, otur miskin olanda. [5.s.136-137].

Yuxarıda Molla Cüməyə məxsus 8 şeirin gürcü əlifbası ilə köçürülmüş əlyazma nüsxələrin hərəsindən bir bəndinin mətninin tekstoloji-müqayisəli təhlili və təhriflər göstərilmişdir. Şeirlərin təhlilini tam həcmdə "Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı" adlı kitabımızda vermişik.

Azərbaycan xalq ədəbiyyatının gürcü əlifbası ilə köçürülmüş bir çox nümunələri K.Kekelidze adına Gürcüstan Elmlər Akademiyasının Əlyazmalar İnstitunda saxlanılır. Bu isə sübut edir ki, Azərbaycan şifahi xalq poeziyası, o cümlədən aşıq şeiri nümunələri əsrlər boyunca digər xalqlar arasında da geniş yayəlmışdır, yalnız doğma vətəndə deyil, qonşu xalqların arasında da böyük nüfuz qazanmışdır. Molla Cümənin əldə etdiyimiz gürcü əlifbası ilə yazılmış əlimizdəki şeirlər toplusu inanırıq ki, şairin mədəni irsinin daha ətraflı araşdırılmasına yardım edəcəkdir.

ƏDƏBİYYAT:

1. П.Ингорокхва, Ш.Руставели, Тбилиси, 1975.
2. М.Чачава, Тбилиси, 1979.
3. Molla Cümə. Şeirlər. Gürcü əlifbası ilə köxürülmüş əlyazma. ƏYİ-şifri FR-1648-27 səhifə.
4. Molla Cümə, əsərləri/nəşrə hazırlayan: Paşa Əfəndiyev. Bakı: "Şərq-Qərb", 2006.

5. Bəkirov Novruz. Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı. Bakı. "Nafta-Press", 2018.
6. Алиева Дилара. "Из истории азербайджанско-грузинских литератураных связей" . Баку. Елм, 1958

Бекиров Новруз

Об исследовании авторского варианта произведений молла джумы, переписанных на грузинском алфавите

Резюме

В данной статье речь идет о живших веками в дружеских отношениях народов Азербайджана и Грузии. Оба народа совместно боролись за свою независимость. Примером дружбу между азербайджанским и грузинским народами может послужит дружеские отношение между Молла Джумы и Константином Мурадханашвили. Оба мастера оказали огромное влияние на развитие ашугского искусства в Азербайджане и в Грузии.

С нашей стороны найдена рукопись на азербайджанском языке, которая было переписана грузинским алфавитом Константином Мурадханашвили со слов Молла Джумы. Эта тетрадь состоит из 38 стихов.

Данная рукопись из 27 страниц с нашей стороны передана в Институт Рукописей имени Магаммеда Физули Национальной Академии Наук Азербайджана. Рукопись зарегистирирована под шифром FR-1648, мы верим что, она сыграет важную роль для будующих исследований.

Ключевые слова: Молла Джума, ашыгское искусство, Ашыг Konctantин, рукописный список, сравнительное исследование

Bekirov Novruz

About the original version of manuscript copies of molla juma works using georgian alphabet

Summary

The article tells about the relations between Azerbaijan and Georgian nations who had lived in the Caucasus region for centuries in good neighbourhood and friendly atmosphere. Both nations have fought alongside for keeping their statehood in military, economic, political and cultural spheres in different historical periods. All of this were of great importance for the joint activities of the two nations in the literary and cultural fields. These relations stayed on historical roots. The art friendship of Molla Juma and Konstantin Muradkhanashvili can also be mentioned as an example in this area. Both men had a great effect on the development of ashug poetry between Azerbaijan and the Georgian people, and developed good neighbourhood and friendly relations among nations.

The 38 poems written with Georgian alphabet had been copied by Konstantin Muradkhanashvili were uncovered by us, this manuscript copies were investigated by the Manuscripts Institute named after Mohammed Fuzuli and registered with the FR-1648 code. We believe that this manuscript can become an interesting source for future researchers.

Keywords: Molla Juma, ashug art, Aşıq Konstantin, manuscript, comparative analysis

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 20.05.2019
Filologiya üzrə elmlər doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.